**Bank Respublika**
sizə faydalı

**“Bank Respublika” ASC “Rəqəmsal bankçılıq üzrə analitik” vəzifəsi üzrə vakansiya elan edir.**

**Namizədə qarşı tələblər:**

- İş təcrübəsi: texniki tapşırıq və biznes proseslərinin təhlili əsasında proqram təminatlarının hazırlanması, onların testdən keçirilməsi, düzəlişlərin edilməsi, sistemlərin avtomatlaşdırılması, layihələrin hazırlanması və icrası üzrə arzu olunandır;
- IT sahəsi üzrə təhsil və nəzəri biliklər arzu olunandır;
- Komanda şəklində çalışmağı və müzakirələri aparmağı bacaran, fikrini düzgün və dolğun çatdıra bilən, müzakirə olunan məsələlərdə proaktiv mövqeyə malik olan;
- Sistemli şəkildə düşünmək və məhsulu inkişaf etdirə bilmək bacarığı;
- Stressə davamlı, çalışqan, öyrənəbilmək və ünsiyyətqurmaq bacarığı;
- Dil bilikləri: Azərbaycan və Rus dilləri mükəmməl olmalı, İngilis dili arzuolunandır.

**Ümumi vəzifə öhdəlikləri:**

- Rəqəmsal tətbiqlərin işlənilməsi üzrə texniki tapşırıqların hazırlanması;
- İşlənilmiş tətbiqlərin funksional testi (front-end və back-end), veb-servislərin keyfiyyətinin izlənilməsi;
- Xarici və daxili işçi qrupları ilə ünsiyyətin aparılması;
- Rəqəmsal tətbiqlərin keyfiyyətinə nəzarət edilməsi;
- Daxili hesabatların hazırlanması və onların təhlili;
- Rəqəmsal tətbiqlərin daxili biznes-məntiqinin inkişaf etdirilməsi;

**Sizə nə təklif edirik?**

- Əlverişli iş mühitində çalışmaq imkanı;
- Karyera və inkişaf perspektivləri.

Göstərilən tələblərə cavab verən namizədlər öz CV-lərini, email-in mövzu hissəsində **“Rəqəmsal bankçılıq üzrə analitik**” qeyd edərək **HR@bankrespublika.az** elektron ünvanına göndərə bilərlər.

- Müraciət etmədən öncə vakansiya üçün vacib dəyərləndiriləcək tələblərlə tanış olun və müsahibə zamanı bu tələbləri nümayiş etdirə biləcəyinizə əmin olun;
- Həmçinin bildirmək istərdik ki, işəqəbul prosesinin növbəti mərhələsi üçün yalnız seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.